*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin orqanı

8 iyul 2022-ci il
№26 (8984)

www.muallim.edu.az
muallim@edu.gov.az








# Olimpiada həyəcanı, MEDAL SEVİNCİ

28 iyun — 3 iyul tarixlərində Bosniya və Herseqovinanın Sarayevo şəhərində Yeniyetmələrin 26-cı Balkan Riyaziyyat Olimpiadası təşkil edilib. Sözügedən yarışda məktəblilərimiz uğurla çıxış edərək 2 gümüş, 3 bürünc medal qazanıblar. Belə ki, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin IX sinif şagirdi Saleh Məmmədli və Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin IX sinif şagirdi Səid Bəkirov gümüş, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin IX sinif şagirdi İbrahim Kərimli, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin IX sinif şagirdi Telman Məmmədov və Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin IX sinif şagirdi Mirhəbib Əsgərov bürünc medal qazanıb.

Qeyd edək ki, şagirdlərimiz Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasında 2010-cu ildən iştirak edir. Bu günə kimi 3 qızıl, 21 gümüş, 25 bürünc olmaqla, ümumilikdə 49 medal əldə edilib.

⇨Ardı səh.6

## Məktəblilərimiz böyük uğura imza atıblar

# Olimpiada həyəcanı, MEDAL SEVİNCİ

## Məktəblilərimiz böyük uğura imza atıblar



⇦ Əvvəli səh.1

Serbiyanın paytaxtı Belqrad şəhərində onlayn keçirilən VII Avropa Coğrafiya Olimpiadasından növbəti uğur əldə edilib. Belə ki, 11 ölkədən məktəblilərin qatıldığı müsabiqədə Tərtər rayonu Həbib Hüseynov adına Mamırlı kənd tam orta məktəbinin XI sinif şagirdi Murad Qarayev bürünc medala layiq görülüb.

Sözügedən olimpiada 2015-ci ildən etibarən keçirilir. Şagirdlərimiz bu olimpiadaya üçüncü dəfədir ki, qatılıb. Bu günədək sözügedən müsabiqədə 3 bürünc medal əldə edilib.

Qeyd edək ki, olimpiadaya qatılan məktəblilərimizin hazırlıq prosesi Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi çərçivəsində qalib olmuş "Beynəlxalq Coğrafiya Olimpiadalarına hazırlıq" layihəsi əsasında həyata keçirilib. Layihə iştirakçıları əvvəlki tədris illərinin Respublika fənn olimpiadaları qalibləri arasından seçilib.

Azərbaycan müəllimi.- 2022.- 8 iyul.